*Sadıqov T. Cəfər Cabbarlı adına Azərbaycan Respublikası Gənclər Kitabxanasının müasir fəaliyyət konsepsiyası // Elmi əsərlər, 2018,№2(7),iyul-dekabr,* s.79-84.

UOT 027.54(075.8)

**Sadıqov T.**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, dissertant*
*e-mail: sadiqovtahir@mail.ru*

# CƏFƏR CABBARLI ADINA AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR KİTABXANASININ MÜASİR FƏALİYYƏT KONSEPSİYASI

**Açar sözlər**: *Gənclər kitabxanası, fəaliyyət konsepsiyası, Respublika kitabxanası.*

Azərbaycanda gənclərin sağlam, cəmiyyətin fəal üzvü kimi yetişməsi və mədəni inkişafını təmin edə bilmək bütün zamanlarda aktual olub. Bu problem bu gün də diqqət mərkəzindədir.Azərbaycan prezidenti İlham Əliyev 2014-cü ilin oktyabrında Bakıda keçirilən Gənclər siyasəti üzrə birinci qlobal forumun rəsmi açılışında çıxış edərək demişdi: “ ... bildirmək istəyirəm ki, təhsil də hökümətimiz üçün əsas prioritetlərdən biridir. Çünki biz tamamilə əminik ki, yalnız təhsilli, müxtəlif sahələrdə biliklərə malik insanlar həm ölkənin, həm özlərinin inkişafına kömək edə bilərlər. Əgər dünyada inkişaf etmiş ölkələrin keçdiyi yola və əldə etdiyi nailiyyətlərə nəzər yetirsək, görərik ki, uğurlu inkişafın əsas vasitələri enerji sərvətləri, mineral ehtiyatlar, neft və qaz yox, məhz təhsil, elm və texnoloji yeniliklərdir. Yalnız təhsil, bilik və texnologiya bütün bəşəriyyətin aparıcı qüvvəsidir. Bütövlükdə bəşəriyyət innovasiyalardan, müasir texnologiyalardan faydalanır. Buna görə də təhsil Azərbaycanda prioritetlərdən biridir.”[6] C.Cabbarlı adına Azərbaycan Respublikası Gənclər Kitabxanasının fəaliyyəti məhz bu siyasi konsepsiyanın tərkib hissəsi kimi qiymətləndirilə bilər.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası Azərbaycanın dövlət büdcəsindən maliyyələşən mədəniyyət təşkilatı olub, ixtisaslaşdırılmış, 14-30 yaş arası gənclərə, peşəkar səviyyədə gənclərin problemləri ilə məşğul olan fiziki və hüquqi şəxslərə xidmət edən kitabxanadır. Eləcə də bu kitabxana Azərbaycanda gənc istifadəçilərlə iş üzrə ictimai kitabxanalara bir elmi informasiya mərkəzidir.

Keçmiş Sovet İttifaqında gənclərə ixtisaslaşdırılmış kitabxana xidməti XX əsrin 60-cı illərinin ikinci yarısında başlanılır və 1974-cü ildə Sov.İKP MK-nın məlum qərarından sonra dahada inkişaf edir. İlk dəfə 1966-cı ildə Moskva şəhərində yaradılan, Ümumittifaq səviyyədə fəaliyyət göstərməsi nəzərdə tutulan ixtisaslaşdırılmış kitabxana hal-hazırda Rusiya Dövlət Gənclər Kitabxanası (RDGK) adlanır. Sov.İKP MK-nın qeyd olunan qərarından sonra yaradılan ilk gənclər kitabxanalarından biri də məhz Azərbaycan Respublikası Mərkəzi Gənclər Kitabxanası oldu. Bu kitabxananın bazasında 14-dən 21 yaşadək yeniyetmə yaşlı oxucular üçün respublika əhəmiyyətli ilk ixtisaslaşdırılmış kitabxana yaradıldı. Bu ixtisaslaşdırılmış kitabxananın yaranma zərurəti ideası: gənclik – “spesifik sosial və psixoloji xüsusiyyətlərinə malik olan xüsusi yaş kateqoriyasıdır” kimi müəyyənləşdirilmişdi. Məhz bu dövrdə gənclərin həyatında əhəmiyyətli təhsil problemləri, peşə seçimi, vətəndaş mövqeyinin, mənəvi, estetik, bədii prinsiplərin formalaşdırılması qarşısına çıxır. Ədəbiyyat nəzərdə tutulan yetkin və daha mühafizəkar nəslin, təcrübəsi olmayan gənclərin bütün suallarına cavab vermir. 1970-ci illərdə Respublika Gənclər Kitabxanasında o zamanın kütləvi kitabxana xidmətləri sistemində analoqu olmayan müxtəlif şöbələr yaradılırdı.

Başqa bir tərəfdən kitabxananın fəaliyyəti ideoloji, tərbiyə institutu kimi önə çəkilirdi.

[6] http://az.president.az/articles/13220

Dövrün reallıqlarına uyğun olaraq müxtəlif mərhələlərdə kitabxanada müxtəlif şöbələr yaradılmışdır. Həmin dövrdə elmi-tədqiqat, analitik bazanın yaradılması üzrə xeyli təcrübə qazanıldı. RGK-nın sosioloјı araşdırmaları "İşləyən gənclərin həyatında kitab və mütaliə", "Müasir kəndin həyatında kitab","Yuxarı sinif şagirdlərinin həyatında mütaliə" mövzusunda üç iri ümumittifaq tədqiqat~~lar~~ həyata keçirdi. Peşəyönümü şöbəsi müxtəlif eksperimental metodik layihələr hazırlayırdı. Bu metodikalar müxtəlif sistem və idarə kitabxanaların iş təcrübəsində "Yuxarı sinif şagirdlərinin idrak maraqlarının inkişafı üzrə kitabxana işi", "Yuxarı sinif şagirdlərinin idrak maraqları ilə bağlı kitabxana və məktəbin birgə işi", "Yuxarı sinif şagirdlərinin humanitar maraqları inkişafı üzrə kitabxana işi" fəal tətbiq olunmağa başladı. Şöbənin əməkdaşları bütün ölkəni gəzir, məzuniyyətlər edir, saysız-hesabsız mühazirələr, seminarlar, praktiki məşğələlər, ixtisasartırma kursları həyata keçirirdilər.

1970-ci illərdə Respublika Gənclər Kitabxanası bir sıra mühüm ümumittifaq innovativ layihələrdə iştirak etdi. 1980-ci illərdə kitabxana gənclərin mədəni-maarifləndirmə və asudə vaxt problemi müzakirələrində fəal iştirak edirdi. Yazıçılar, şairlər, alimlər, görkəmli ziyalılar və başqaları bu illərdə kitabxana ilə dostluq edib və tez-tez onların qonaqları olurdu. Kitabxanada aktyorlar, tanınmış sənət adamları və başqalarının yaradacılıq gecələri keçirilirdi, bir çox istedadlı gənclərin ilk çıxışları və konsertləri burada keçirilmiş və sonralar bu adlar çox məşhur olmuşdu.

Kitabxana sosioloqları apardıqları "Gənc oxucu-80" ümumittifaq araşdırması nəticələrinə görə öz oxucuları ilə gənclər kitabxanalarının qarşılıqlı fəaliyyət strategiyası uzun müddət müəyyənləşdi. Bu zaman kitabxanada marağa əsasən "Al yelkənlər" ədəbiyyat birliyi, "Dialoq" siyasi-diskussiya klubu, "Hünər" hərbi-vətənpərvərlik klubu, "Ünsiyyət" psixoloji klubu və s. Müxtəlif klublar və yaradıcılıq birlikləri fəaliyyət göstərirdi.

Müstəqillik illərində kitabxana-informasiya fəaliyyətində baş verən transformasiya prosesləri, yeni texnologiyaların tətbiqi, qloballaşan cəmiyyət və dünyanın sürətlə informasiyalaşdırılması Cəfər Cabbarlı adına Respublika Gənclər kitabxanasının da qarşısında yeni vəzifələr qoydu. Zamanın tələblərinə uyğun olaraq və gənclərin mütaliəyə marağını və kitabxanalarda oxucu davamiyyətini (2000-ci illərin əvvəllərində) qoruyub saxlamaq zərurəti ilə əlaqədar, 2006-cı ilin sonundan 2009-ci ilin əvvəlinədək kitabxana işinin tam yenidənqurulmasını və modernləşdirilməsi həyata keçirilmişdir .

Təxminən 137 min çap məhsulu fondu olan zallarda elektron kataloqlu terminallar, özünəxidmət, oxucu stansiyası quraşdırılıb. İstifadəçilər bir dəqiqə ərzində müstəqil şəkildə kitabı qaytarma, vaxtı uzatmaq və ya evə ala bilərlər. Kitabxana ərazisində Wi-Fi zonası da mövcuddur. Oxucular sərbəst şəkildə öz noutbuklarında işləyə bilir və virtual məlumat xidmətindən də faydalanırlar .

Kitabxanada gənc əlillərin , xüsusilə də gözdən əlil oxucuların bütün kitabxana xidmətlərindən sərbəst, maneəsiz faydalanması üçün bütün texnoloji şərait və resurs bazası mövcuddur.

Kitabxana gənclərin təlim-tədris və şəxsi təhsil prosesində informasiya dəstəyi və peşəyönümlü, psixoloji, təhsil xidmətləri göstərir, maarifləndirmə və mədəni-asudə vaxt keçirilməsi işini təşkil edir. Kitabxana yeniyetmə və gənclər, uşaq-gənclər kitabxanalarının şəbəkəsi üçün, eləcə də digər kütləvi gənclər kitabxanalarına xidmət göstərən məlumat-konsultasiya mərkəzidir. Kitabxananın resurs və xidmətlərindən öz oxucularımızla yanaşı yaxın və uzaq MDB ölkələri vətəndaşları da istifadə edə bilirlər.

Gənclər Kitabxanası, Respublika səviyyəli kitabxana olaraq, gənclərlə işin yeni forma

və metodlarının öyrənilməsi, təsdiq edilməsi bazasıdır. Azərbaycanda ictimai kitabxanalar üçün nümunə olaraq ixtisaslaşdırılmış kitabxana xidməti göstərir, müxtəlif ideyalar tətbiq edir, kitabxanaların ümumdünya kitabxana mühitinə qəbul olmağına təkan verir və qarşılıqlı kömək edir.

Müstəqillik illərində Respublika Gənclər Kitabxanası beynəlxalq təcrübənin öyrənilməsi, kitabxananın tarixi təcrübəsi Azərbaycanın etno-mədəni, sosial siyasi, iqtisadi və kulturoloju xüsusiyyətlətini təhlil edərək öz işini 3 əsas istiqamətdə təmərgüzləşdirdi və bu istiqamətlərin məcmusunu gənclər kitabxanasının nümunəvi fəaliyyət strategiyası olaraq müəyyənləşdirdi.

1. Respublika gənclər kitabxanasının fəaliyyətində sosial funksiyaların öyrənilməsi və tətbiqi.
2. Dövlət maraqlarının və tələblərinin öyrənilməsi və gündəlik fəaliyyətdə həyata keçirilməsi.
3. Dünya təcrübəsində müntəzəm innovasiya xassəli təcrübənin öyrənilməsi və yeni texnologiyaların tətbiqi hesabına qabaqcıl iş təcrübəsinə malik olmaq.

Bu istiqamətlər kitabxananın son 20 illik fəaliyyətini xarakterizə etdi. 07 mart 2009-cu il tarixdən kitabxananın yenilənmiş veb saytı fəaliyyətə başladı. 13-17 dekabr 2010-cu il tarixlərdə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "Kitabxanaların elektron resurslarının idarə olunması" mövzusunda treninqlər keçirilməyə başlandı. 27 may-01 iyun 2013-cü il tarixlərdə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "Şəhər (rayon) Mərkəzi Kitabxanalarının Elektron Kataloq və Elektron Kitabxanalarında əlavə dəyişikliklərin edilməsi" mövzusunda təlim keçirildi. Dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar dünya kitabxanalarının qabaqcıl təcrübəsindən bəhrələnmək, kitabxanada tətbiq etmək, qarşıda duran başlıca məsələlərdən biri olaraq qiymətləndirildi.

Qeyd edildiyi kimi yarandığı dövrdən başlayaraq Gənclər Kitabxanalarının üzərinə düşən əsas vəzifələrdən biri onun ideolojı funksiyası idi. Kitabxanaların kütləvi şəkildə ideoloji funksiya daşıması kitabxanaşünaslıq nəzəriyyəsi və təcrübəsi tərəfindən inkar edilsə də, milli vətənpərvərlik tərbiyəsi, ölkəsinə, xalqına, diyarına bağlılıq ruhanda həyata keçirilən təbliğat fəaliyyətinin ideoloji əlamətləri daha qabarıqdır. Bu baxımdan Respublika Gənclər Kitabxanası geniş fəaliyyət planına həyata keçirməkdədir. XXI əsrin İnformasiya əsri kimi elan edilməsi, sürətlənən qloballaşma gənclərə daha çox təsir göstərməkdədir.

Cəfər Cabbarlı adına Respublika Gənclər kitabxanası müasir dövrdə baş verən qlobal proseslərdə öz yerini tapmalı, gənclərə müasir kitabxana-informasiya xidmətinin təşkili məqsədi ilə milli –mədəni və elmi irsin qorunması, mühafizəsi, emalı və xidmətə verilməsi sahəsində fəaliyyətini beynəlxalq təcrübə və müasir tələblərə cavab verə biləcək səviyyədə təşkil etməlidir. Virtual məkanda fəaliyyətini genişləndirmək, sosial şəbəkələrdə gənclərin daima yanında olmaq məqsədi ilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası daima yenilikləri öyrənir, tətbiq edir, treninqlər keçirir, manitorinqlərin nəticələrini təhlil edir və daima çağırışların önündə olmaqdadır.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının yaranması, İnkişaf mərhələləri və Kitabxananın 1991-2016-ci illərdə, müstəqillik dövrü fəaliyyəti strategiyası müxtəlif dövrlərdə müxtəlif səviyyəli tədqiqatların obyekti olmuşdur.

Fərqli elmi-tədqiqatların daxilində Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının fəaliyyətinin öyrənilməsi və birbaşa Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının fəaliyyətinin müxtəlif istiqamətləri ilə bağlı tədqiqatlar.

Bakı Dövlət Universitetinin bakalavr və maqist səviyyəsində Cəfər Cabbarlı adına

Respublika Gənclər Kitabxanasının fəaliyyəti mütəmadi hər beş illik fəaliyyəti öyrənilmiş və tələbə-magistr səviyyəsində qiymətləndirilmişdir.

Müstəqillik illərində Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının müxtəlif səviyyələrdə əməkdaşları respublika və beynəlxalq səviyyəli konfranslarda, seminar və müşavirələrdə iştirak etmiş, mütəmadi çıxışlar etmiş, təqdimatlar keçirmişlər. Bu çıxış və məruzələr əksər hallarda təqdimat xarakterli olmuşdusada materiallar dissertasiya işində elmi təhlilə məruz qalmış və qiymətləndirilmişdir.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının yaranması, İnkişaf mərhələləri və Kitabxananın 1991-2016-ci illərdə, müstəqillik dövrü fəaliyyəti strategiyası kitabxana kollektivi tərəfindən Azərbaycan Respublitası Mədəniyyət və Turizm Nazirliyinin mütəxəssis əməkdaşları ilə birgə mütəmadi təkmilləşdirilir, zamanın tələblərinə uyğunlaşdırılır və dövrün çağırışlarına cavab verir.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının yaranması, İnkişaf mərhələləri və Kitabxananın 1991-2016-ci illərdə müstəqillik dövrü fəaliyyəti strategiyasıdır. Kitabxananın informasiya fəaliyyətinin idarə olunması, innovasiyaların tətbiqi, fəaliyyətin inkişaf etdirilməsi, menecmentin təşkili vəziyyəti və müasir problemləridir.

Bu gün qarşıda duran mühüm fəzifə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının yaranması, İnkişaf mərhələləri və Kitabxananın 1991-2016-ci illərdə, müstəqillik dövrü fəaliyyəti strategiyasını öyrənmək və nümunəvi kitabxana modelini müəyyənləşdirməkdir. Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının fəaliyyətinin idarə olunması vəziyyətini araşdırmaq, onun müasir problemlərini müəyyən etmək, bu sahədə fəaliyyətin daha səmərəli inkişafına dair elmi, nəzəri və təşrübi tövsiyələr hazırlamaqdan ibarətdir.

Problemin əsas məqsədinə uyğun olaraq aşağıdakı məsələlərin araşdırılması vəzifə olaraq qarşıya qoyulur:

- Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının yaranması, fəaliyyətinin tarixi baxımdan təşəkkülü və inkişafının ümumi elmi mənzərəsini yaratmaq.

-XX əsrin 70-80-ci illərində kitabxana işi sahəsində aparılan islahatlar çərçivəsində kitabxananın sosial funksiyaları və fəaliyyətinin idarə olunmasında baş verən transformasiyaların ümumiləşdirilməsi.

-Müstəqillik illərində Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının fəaliyyətinin yeni şəraitə uyğun olan sosial və kulturoloji elementlərinin öyrənilməsi.

- Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının gənclik – "spesifik sosial və psixoloji xüsusiyyətlərinə malik olan xüsusi yaş kateqoriyasıdır" kimi müəyyənləşdirilmiş konsepsiyanın elmi və təctübi əsaslandırılması.

C.Cabbarlı adına Azərbaycan Respublikası Gənclər Kitabxanasının fəaliyyətinin nəzəri-metodoloji əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası, mədəniyyət və kitabxana- informasiya fəaliyyəti sahəsində qüvvədə olan qanunlar, gənclər haqqında dövlət siyasətini ifadə edən elmi-nəzəri konsepsiyalar, azərbaycan kitabxaşünaslıq sahəsinin görkəmli alimlərinin əsərləri təşkil etmişdir və kitabxana bu strateji xətti davam etdirməkdədir.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının gənclik – "spesifik sosial və psixoloji xüsusiyyətlərinə malik olan xüsusi yaş kateqoriyasıdır" kimi müəyyənləşdirilmiş konsepsiyanın elmi və təcrübi əsaslandırılmasıdır. Bu istiqamətdə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əsas vəzifəsi müəssisənin informasiya infrastrukturunun bütün komponentlərinin səmərəli fəaliyyət göstərməsini təmin etməkdən ibarət olmuşdur ki, bu da qarşıya qoyulan vəzifələrin həyata keçirilməsinə yönəldilib. Əsas vəzifələri aşağıdakı kimi müəyyənləşdirmək olar:

1. Dövlətin kitabxana siyasəti, vəzifələr və onun icrası.
2. Kitabxana işinin aktual texnoloji təchizatı, kompüterləşdirmə bazaları və şəbəkəli sistemin genişləndirilməsi.
3. Beynəlxalq təcrübə mübadiləsi və təşəbbüslərin öyrənilməsi, tətbiqi və fəaliyyət istiqamətlərinin inkişaf etdirilməsi.
4. Oxucu-kitabxana-oxucu əlaqələrinin qorunub saxlanılması və inkişaf etdirilməsi.
5. Kitabxananın bütün fəaliyyət istiqamətlərinin elmi əsaslar üzərində öyrənilməsi və təşkili, BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin sahə mütəxəssislərinin elmi-nəzəri və təcrübi təyinatlı tədqiqatları, müxtəlif ali təhsil ocaqlarının, AMEA-nın ekspert və mütəxəssisləri ilə davamlı görüşlər, müzakirələrin keçirilməsi və sairə.

O cümlədən aparılan tədqiqatların nəticəsində aşağıdakı istiqamətlərdə fəaliyyətin təmərgüzləşməsi əhəmiyyətli hesab edilə bilər:

- Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının gənclik – “spesifik sosial və psixoloji xüsusiyyətlərinə malik olan xüsusi yaş kateqoriyasıdır” kimi müəyyənləşdirilmiş konsepsiyanın elmi və təcrübi əsaslandırılmasıdır.
- Kitabxananın informasiya fəaliyyətinin idarə olunması, təşəkkülü, inkişafının meyl və ənənələrinin ilk dəfə elmi araşdırması.
- Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının idarə olunması və onun menecmentinin mahiyyəti və məzmununun metodiki-hüquqi əsaslarının elmi şərhinin verilməsi.
- Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının kadr təminatı məsələləri və gənclərə sahəvi kitabxana-informasiya xidmətinin spesifikliyinin tədqiqi.
- Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının müasir informasiya texnologiyalarının tədbiqi prosesinin vəziyyəti və təkmilləşdirilməsi yollarının araşdırılması.
- Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının informasiyalaşdırılmasının ümumi vəziyyətinin müəyyənləşdirilməsi.
- Kitabxananın İKT sahəsindəki strategiyasının gənclərin informasiya təminatı vasitəsi kimi əsaslandırılması.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının fəaliyyətininin idarə olunması və onun müasir problemləri strategiyası müasir kitabxanaşünaslıq elminin son nailiyyətləri əsasında işlənilmişdir ki, bu da milli kitabxanaşünaslığın elmi-nəzəri arsenalını xeyli genişləndirməkdədir. Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının fəaliyyətininin idarə olunması və onun müasir problemləri strateqiyası BDU-nun kitabxanaçılıq-informasiya təhsili alan tələbələrinə müvafiq fənn üzrə tədrisə cəlb olunması kimi əhəmiyyətlidir və kitabxanaçılıq sahəsində, ixtisasartırma kurslarında, treninqlərdə, fasiləsiz təhsil sistemində müvafiq kursların tədrisində istifadə oluna bilər.

## Ədəbiyyat :


1. Xələfov A.A. Kitabxana və cəmiyyət. – Bakı: Azərnəşr, 2011. – 360 s.
2. Гусева Е. Н. Инновации в библиотеках страны: подходы, проблемы, проекты // Библиотечное дело- XXI век / Рос. Гос. Б-ка. – 2010. - № 1 (19). – С.99.
3. Качанова Е. Ю. Инновационная политика: цели, этапы, методы / Е. Ю. Качанова // Библиотека. – 2003. – № 10.
4. Бражникова С. А. Инновации в библиотеках: теоретические и методологические аспекты: [Электронныйресурс] С.А.Бражникова //Библиография. – 2003. – № 4. – С. 35-47. – Режим доступа: http://www.bgunb.ru, свободный.

5. Sadıqov T.K. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası: dünəni, bugünü və Sabahı. – Bakı :"Apostroff", 2014. – 424 s.
6. Sadıqov T.K. Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası (elmi, metodiki və təcrübi fəaliyyətin təhlili). – Bakı :"Apostroff", 2015. – 272 s.
7. Sadıqov T.K. Milli irsin təbliğində Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının rolu. – Bakı: «ŞƏRQ» Nəşriyyatı, 2016. 168 s.

***Тахир Садыгов***

## СОВРЕМЕННАЯ КОНЦЕПЦИЯ ДЕЯТЕЛЬНОСТИ РЕСПУБЛИКАНСКОЙ МОЛОДЕЖНОЙ БИБЛИОТЕКИ им. Дж.ДЖАББАРЛЫ

**Резюме**

В статье освещается деятельность Республиканской Молодежной Библиотеки им. Дж.Джаббарлы в годы независимости : формирование и процесс развития. Также анализируются теоретические и практические вопросы ее деятельности на современном этапе.

***Ключевые слова:*** *молодежная библиотека, республиканская библиотека. концепция деятельности.*

***Takhir Sadiqov***

## MODERN CONCEPT OF ACTİVİTY OF THE REPUBLİCAN YOUTH LİBRARY NAMED AFTER J.JABBARLY

**Summary**

The article studies the problems of librarianship in the Republican Youth Library named after J. Jabbarly in the years of independence, the formation and development of the librarianship. Theoretical and practical questions of librarianship in the Republican Youth Library named after J. Jabbarly.

**Key words:** youth library, Republican library, concept of activity.

*Redaksiyaya daxil olma tarixi: 16.10.2018*
*Çapa qəbul olunma tarixi:03.12.2018*

*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent* ***Nadir İsmayilov*** *tərəfindən çapa tövsiyə olunmuşdur.*